

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 56 (21.208)

*19 mart 2015-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Martın 18-də Bakı Olimpiya Stadionunun açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 18-də Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası ilə bağlı görülən işlərlə tanış olublar.

* * *

Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionu ətrafında inşası davam etdirilən yol-nəqliyyat infrastrukturunun tikintisi ilə tanış olub.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 18 mart tarixli Sərəncamı ilə miqrasiya orqanlarında qulluqda fərqləndiklərinə və səmərəli fəaliyyət göstərdiklərinə görə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin bir qrup əməkdaşı təltif edilmişdir.Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları da vardır.

**“Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə” medalı ilə**

Ələkbərov Fazil Nəriman oğlu

Əliyeva Aysel Etibar qızı

Hüseynov Orxan Yaşar oğlu

İbrahimov Ramin Ənvər oğlu

## Elm və təhsilin vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədən irəli gələn vəzifələr müzakirə edilir

***Naxçıvan Muxtar Respublikasında elm və təhsilin vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədən irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı martın 18-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində tədbir keçirilib.***

Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müşavirədə aidiyyəti təşkilatlara verdiyi tövsiyə və tapşırıqları, təhsilin inkişafı məqsədilə müəyyənləşdirilmiş prioritet istiqamətləri bir daha diqqətə çatdırıb.

Vurğulanıb ki, muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqlarının təmin olunması daim diqqət mərkəzindədir.



“2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın qəbul edilməsi təhsil sahəsində aparılan islahatların davamı, bu qəbildən olan uşaqlara qayğının bariz ifadəsidir.

Qeyd olunub ki, hazırda muxtar respublika üzrə sağlamlıq imkanları məhdud 20 uşaq distant təhsilə cəlb edilib. Distant Tədris Mərkəzinə eyni vaxtda 50 istifadəçinin qoşulması mümkündür. Gələcəkdə serverin tutumunun 200 istifadəçiyədək artırılması nəzərdə tutulub ki, bu da bir o qədər sağlamlıq imkanları məhdud uşağın videobağlantı vasitəsilə məsafədən tədris prosesinə qoşulmasına imkan verəcək.

“Sağlamlıq imkanları məhdud uşaqların təhsilinin fasiləsizliyini təmin etmək məqsədilə onların məktəbəqədər, ümumtəhsil, həmçinin məktəbdənkənar müəssisələrə cəlbi diqqət mərkəzində saxlanılır”, – deyən nazir onu da bildirib ki, sağlamlıq imkanları məhdud uşaqların maraq və bacarıqları nəzərə alınaraq, habelə onların asudə vaxtlarının səmərəli təşkili məqsədilə məktəbdənkənar müəssisələrdə yaradılmış dərnəklərə, idman qruplarına cəlb edilməsi istiqamətində işlər davam etdirilir.

Vurğulanıb ki, muxtar respublikamızda iqtisadiyyatın dinamik inkişafı, istehsalatda müasir texnologiyaların tətbiqi, yeni infrastruktur layihələrin icrası nəticəsində ixtisaslı kadrlara olan tələbatın ödənilməsi, habelə əhalinin müasir peşə təhsili almaq imkanının təmin edilməsi də dövlətimizin diqqət mərkəzindədir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzinin yaradılması ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayıb.

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, mərkəz fəaliyyətə başladığı gündən 126 peşə hazırlıq kursu üzrə 1747 vətəndaşa müvafiq peşə təhsili verib, onların işlə təminatı da diqqət mərkəzində saxlanılıb, təhsilini başa vuran müdavimlər iqtisadiyyatın müxtəlif sahələrində peşələrinə müvafiq işlə və ya fərdi məşğulluqla təmin ediliblər.

Sonra məruzə ətrafında çıxışlar olub.

Tədbirdə müşavirədə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində görüləcək işlər geniş müzakirə edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***



Naxçıvan Muxtar Respublikasında elm və təhsilin vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda müşavirədən irəli gələn vəzifələrin müzakirə edilməsi məqsədilə AMEA Naxçıvan Bölməsində keçirilən iclası giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb.

Bölmə sədri adıçəkilən müşavirədə elm və təhsil müəssisələri qarşısında qoyulan vəzifələrdən danışıb, verilən tövsiyə və tapşırıqların mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Qeyd edilib ki, elm və təhsil müəssisələri üçün yaradılan şərait, xüsusilə muxtar respublikada elmin inkişafına göstərilən dövlət qayğısı elm adamlarının məsuliyyətini daha da artırır. Burada aparılan tədqiqatların elmi və praktik nəticəliliyi, səmərəliliyi əsas şərtlərdən biridir.

Bildirilib ki, qarşıda duran vəzifələrdən biri də bölmənin elmi-tədqiqat institutlarının müəssisələri ilə əlaqələrinin möhkəmləndirilməsi, institutların əməkdaşlarının məktəblərdə keçdiyi dərslərə diqqətin artırılması, səmərəliliyin təmin olunmasıdır. Bölmədə gənc tədqiqatçıların hazırlanması istiqamətində görülən işlərdən də bəhs edən akademik bu sahədə tədbirlərin gücləndirilməsi və elm sahəsini seçən gənclərin davamlı fəaliyyətlərinin təmin olunması, elmi işlərin səviyyəsinin yüksəldilməsi üçün görüləcək işlərdən danışıb.

Tədbirdə çıxış edən İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov müşavirədə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi məqsədilə rəhbərlik etdikləri elmi-tədqiqat institutlarının fəaliyyətini daha da gücləndirəcəklərini bildiriblər.

***Dünən bu mövzuda Naxçıvan Müəllimlər İnstitutunda da tədbir keçirilib.***

İnstitutun rektoru, professor Oruc Həsənli tədbirdə çıxış edərək bildirib ki, muxtar respublikada təhsilə göstərilən dövlət qayğısı nəticəsində Naxçıvan Müəllimlər İnstitutunda da əlverişli tədris şəraiti yaradılıb, güclü maddi-texniki baza formalaşdırılıb. Ali təhsil müəssisəsində yaradılmış 2 kompüter-tədris otağı və quraşdırılmış 11 elektron lövhə tədris prosesində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi imkanlarını artırır.

Rektorun sözlərinə görə, institutda fəaliyyət göstərən 82 müəllimdən 9-u elmlər doktoru-professor, 40-ı isə fəlsəfə doktoru-dosentdir. Xarici ölkələrin aparıcı ali məktəbləri ilə elmi əməkdaşlığın nəticəsidir ki, bu gün Naxçıvan Müəllimlər İnstitutunun tədqiqatçı alimləri Türkiyə, Ukrayna, Qazaxıstan, İngiltərə kimi ölkələrin ali məktəbləri və elmi birlikləri ilə əlaqələr saxlayır, beynəlxalq konfranslarda iştirak edirlər. Burada çalışan elmi dərəcəli professor-müəllim heyətinin ümumtəhsil məktəblərində dərslərinin təşkili də yüksək səmərə verməkdədir. Eyni zamanda ən qabaqcıl məktəblərin yeni təhsil islahatları ilə işləyən müəllimləri institutda açıq dərslər keçməyə cəlb edilirlər. Bu yolla ali məktəblərin tədris proqramları ilə ümumtəhsil məktəblərində tədrisdə baş verən dəyişikliklərin uzlaşması təmin edilir.



Xarici ölkələrdən və Bakı şəhərindən yüksəkixtisaslı professorların mühazirə oxumaq üçün dəvət olunmaları da tələbələrin intellektual səviyyələrinə və dünyagörüşlərinə müsbət təsir göstərir. Bu məqsədlə 2014-cü il dekabrın 16-da eyni vaxtda 8 auditoriyada dəvət olunmuş professorlar mühazirələr aparıblar.

Gənc alimlərin elmi fəaliyyətinə də toxunan rektor qeyd edib ki, 2014-cü ildə institutun 6 əməkdaşı doktoranturaya qəbul olunub. Əməkdaşların yerli və xarici jurnallarda 223 məqaləsi (o cümlədən 15-i xaricdə), 82 tezisi (o cümlədən 20-si xaricdə), həmçinin 17 kitabı, 6 monoqrafiyası, 3 dərslik və 8 dərs vəsaiti, eləcə də 18 metodik vəsaiti və fənn proqramları nəşr olunub.

Oruc Həsənli bütün bunlarla yanaşı, fəaliyyətlərində bəzi nöqsanların olduğunu da bildirib. Belə ki, hələ də tələbələrin kitab mütaliəsinə olan marağları lazımi səviyyədə deyil. Vurğulanıb ki, ali məktəbin kollektivi bundan sonrakı fəaliyyətini müşavirədə verilən tövsiyələr əsasında quracaq, qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün var qüvvəsi ilə çalışacaq.

Sonra məruzə ətrafında institutun müəllimlərindən Həsənəli Eyvazlının və Azər Novruzovun çıxışları olub, müzakirələr aparılıb.

Tədbirə Naxçıvan Müəllimlər İnstitutunun rektoru Oruc Həsənli yekun vurub.

## Müəllimlərin attestasiyası başa çatıb

***Muxtar respublikanın ümumtəhsil məktəblərində çalışan müəllimlərin attestasiyası dünən başa çatıb. Son attestasiya imtahanında “musiqi”, “təsviri incəsənət”, “əmək hazırlığı” və “texnologiya” fənlərini tədris edən müəllimlər biliklərini sınayıblar.***

Attestasiyanın yekunu ilə bağlı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidmətindən qəzetimizə verilən məlumatda bildirilir ki, mart ayının 1-dən başlayan imtahanlarda martın 18-nə qədər Azərbaycan dili və ədəbiyyat, tarix, fizika, biologiya, kimya, fiziki tərbiyə, gənclərin çağırışaqədərki hazırlığı, xarici dil, coğrafiya, riyaziyyat, informatika, ibtidai sinif müəllimləri iştirak ediblər. İmtahanlar Naxçıvan şəhər 14, Şərur şəhər 2, Culfa şəhər 3, Şahbuz şəhər 1 nömrəli məktəblərin binalarında keçirilib. Müəllimlərin biliklərinin sınandığı ünvanlar sırasında Babək qəsəbə tam orta məktəbi, Ordubad şəhər internat məktəbi, Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbi, Sədərək rayon Heydərabad qəsəbə tam orta məktəbi də olub.

Ümumiyyətlə, iki saat müddətində yazılı test formasında keçirilən attestasiya imtahanlarında müəllimlərə 80 sual təqdim olunub. Sözügedən attestasiya müəllimlərin dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə malik olması, təhsil proqramlarına uyğun ixtisas və elmi-pedaqoji səviyyələrinin yüksəldilməsi, onların peşəkarlıq səviyyəsinin artırılması, əlavə təlim ehtiyaclarının müəyyənləşdirilməsi, müəllimlik fəaliyyətinin stimullaşdırılması və onların əməyinin qiymətləndirilməsinin təmin edilməsi məqsədilə aparılıb.



**Xəbərlər şöbəsi**

# Sənaye parklarının yaradılması sənayeləşmə siyasətinin mühüm tərkib hissəsidir

***Sənaye məhsulu istehsalı iqtisadi inkişafın əsas göstəricilərindən biri olub, yeni iş yerlərinin yaradılmasının, innovasiyaların tətbiqi və ixracyönümlü əmtəələrin çeşidinin artırılmasının əsas yollarından biridir. Sənaye sahəsində ölkədəki xammal ehtiyatları insanların tələbatlarına cavab verə bilən son məhsul halına gətirilir ki, nəticədə, ixtisaslaşmış əməyin tətbiqinə geniş meydan açılır.***

Müasir istehsal infrastrukturuna malik sənaye parklarının yaradılması regionda sənaye sahələrinin inkişafının təmin edilməsini nəzərdə tutan dövlət siyasətinin həyata keçirilməsinə yönəldilmişdir. Çünki sənaye parklarının yaradılması iqtisadiyyatın ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi vacib məsələlərin həlli baxımından xüsusilə əhəmiyyətlidir.

Sənaye parklarının bu əhəmiyyətli cəhətləri nəzərə alınaraq Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədilə sənaye parklarının yaradılmasına başlanılmışdır. Bu sahədə müvafiq qanunvericilik bazası baxımından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Əsasnamə" sənaye parklarının yaradılmasına, idarə edilməsinə və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələlərin tənzimlənməsinə geniş imkanlar yaratmışdır.



Muxtar respublikamızda sənaye parkı yaradılması istiqamətində görülən işlər barədə məlumat almaq üçün səlahiyyətli orqan olan Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinə müraciət etdik. Nazirlikdən əldə etdiyimiz məlumatda sənaye parkının yaradılması uyğun hesab olunan, dövlət, xüsusi və bələdiyyə mülkiyyətində olan torpaq sahələri haqqında təkliflərin hazırlanması istiqamətində işlərin tamamlandığı və aşağıdakı layihələrin hazırlandığı bildirildi. Təqdim olunmuş məlumatda İqtisadiyyat və Sənaye Nazirliyinə verilmiş tapşırıqların icrası ilə bağlı bir sıra tədbirlərin həyata keçirildiyi göstərilir.

Belə ki, ötən dövr ərzində sənaye parkının yaradılması uyğun hesab edilən sahələr müəyyənləşdirilmiş, təkliflər hazırlanmış, sənaye parkının nizamnaməsi, sənaye parkı üzrə operatorun müsabiqə əsasında seçilməsi qaydası, sənaye parkının rezidentlərinin fəaliyyətləri haqqında hesabat-statistik məlumatların alınması və onların fəaliyyətinin monitorinqinin həyata keçirilməsi qaydaları, sənaye parkında həyata keçirilən fəaliyyət haqqında yarımillik hesabat, habelə öz fəaliyyətinin kənar auditor hesabatının hazırlanması və təqdim edilməsi qaydaları, hüquqi və fiziki şəxslərlə operatorun niyyət razılaşmasının nümunəvi formasının layihəsi, hüquqi və fiziki şəxslərin qeydiyyatdan keçmələri üçün ərizə forması və ona əlavə edilən sənədlərin siyahısı, təqdim olunan investisiya layihəsinin müəyyən edilmiş meyarlara uyğunluğunun qiymətləndirilməsi qaydaları, sənaye parkının rezidentlərinin reyestrinin aparılması qaydalarının və qeydiyyat şəhadətnaməsinin forması, sənaye parkı ərazisində dövlət mülkiyyətində olan torpaq sahələrinin icarə müqaviləsinin nümunəvi forması, birgə sənaye parkının fəaliyyətinin təşkili və idarə olunması qaydaları hazırlanaraq nazirliyin kollegiya iclasında təsdiq edilmişdir.

Sənaye parkının yaradılmasının iqtisadi əsaslandırılması və qurulacağı ərazi ilə bağlı təklif hazırlanmışdır. Eyni zamanda təklif olunan ərazidə xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, mühəndis-kommunikasiya, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər), dəmir yolu və avtomagistralın yaradılması kimi texniki məsələlər də nəzərə alınmışdır.

Muxtar respublikada yaradılacaq sənaye parkında istehsal olunacaq məhsullar kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradacaq, onlarla yeni istehsal sahələrinin yaradılmasına və inkişafına təkan verəcəkdir. Bu məqsədlə bir çox layihələrin həyata keçirilməsi planlaşdırılır. Mövcud infrastruktur nəzərə alınmaqla izolyasiya materialları, kafel, metlax, Günəş enerjisi ilə suisitmə sistemləri, birdəfəlik tibbi şpris, qaynaq işləri üçün elektrod, məişət avadanlıqları və elektron cihazlar, məktəbli və ofis ləvazimatları, sumbata bezi (pas kağızı), divar kağızı, müxtəlif növ şuruplar, silikon məcun, dəsmal, Günəş panelləri, diş pastası, şüşəlifli izolyasiya materialı, döşəmə üçün PVC örtük, gön-dəri (son mərhələyədək), üzvi gübrə və yem, dərman preparatları, kosmetika məqsədli yağ, ekstrakt və preparatlar, balıq yemi, konservləşdirilmiş ərzaq məhsulları, meyvəli yoğurt, kartof nişastası, müxtəlif növ souslar, südlü uşaq yeməyi və bitki yağı, yunun qəbulu, emalı və xalça istehsalı sahələri və habelə istismar müddəti başa çatmış avtomobil şinlərinin utilizasiyası, pet taraların təkrar emalı, məişət tullantılarının çeşidlənməsi, utilizasiya edilməsi üçün tullantıların emalı zavodunun yaradılması, tərəvəz məhsullarının emalı sahələri olmaqla, 34 növdə məhsul istehsalı üzrə layihələrin hazırlanması üçün təkliflər irəli sürülmüşdür.

Bu vəzifələrin öhdəsindən gəlmək üçün xarici ölkələrin bu sahədəki müsbət təcrübəsinin öyrənilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, nazirliyin əməkdaşları və sahibkarlar Çin Xalq Respublikasında "Azərbaycanda sənaye parkının tikintisi" mövzusunda keçirilmiş seminarda və "XXI əsrdə sənayeləşmə: sənaye siyasətində əsas trendlər, müasir yanaşma və təcrübələr" mövzusunda keçirilən Bakı Beynəlxalq Sənaye Konfransında iştirak etmiş, Sumqayıt kimya-sənaye parkında və Sumqayıt texnologiyalar parkında yerləşən sənaye müəssisələrinin fəaliyyəti ilə tanış olmuşlar.

Qeyd edək ki, sənaye parkı ilə bağlı rezidentlərə bir sıra güzəştlər də tətbiq edilir. Belə ki, sənaye parklarının rezidentləri 7 il ərzində mənfəət, əmlak, torpaq vergilərindən və idxal olunan avadanlığın əlavə dəyər vergisindən azaddırlar.

*Bütün bunlar deməyə əsas verir ki, sənaye parklarının yaradılması Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilən sənayeləşmədə yeni mərhələnin başlanğıcı olacaqdır.*

**Əli CABBAROV**

*Yaşıl guşə*

# Naxçıvan yaşıllıqlar diyarına çevrilib

## *Yeni yaşıllıqlar, meyvə bağları həm ekoloji tarazlığı qoruyur, həm də iqtisadi inkişafa öz töhfəsini verir*

**Ən qiymətli sərvət və ekoloji problemlərin aradan qaldırılmasında əsas təbii vasitə olan yaşıllıqların mühafizəsi, artırılması məqsədilə görülən işlər öz bəhrəsini verməkdədir. Naxçıvanda son 20 ildə yaşıllıqların ümumi sahəsi 0,6 faizdən 12 faizə qədər artmışdır. 1990-cı illərin əvvəllərində insanların enerji ehtiyatı kimi baxdıqları yaşıllıqların bu qədər artmasının yeganə səbəbi vardır ki, o da təbiətə göstərilən dövlət qayğısıdır. 1993-cü il aprelin 2-də ümummilli liderimiz Heydər Əliyevin qəbul etdiyi tarixi qərarla muxtar respublika ərazisində başlanan yaşıllaşdırma tədbirləri bu gün bütün ölkə ərazisində davam etdirilir.**

Respublika ərazisində bu işlərin planlı aparılması üçün 2003-cü il fevralın 18-də "Azərbaycan Respublikası meşələrinin bərpa edilməsi və artırılmasına dair Milli Proqram" qəbul edilmiş və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında bu sahədə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı dövlət proqramlarına, "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, yeni meşə massivlərinin, yaşıllıq zolaqlarının və meyvə bağlarının salınması sahəsində tədbirlər ardıcıllıqla davam etdirilir. Xüsusilə qeyd etməliyik ki, artıq yaşıllıqlar enerji mənbəyi deyil, sağlam həyat tərzinin başlıca amili rolunu oynamaqdadır. Çünki müasir Naxçıvanımızda ən yüksək səviyyədə enerji təminatı yaradılmış, vətəndaşlarımız fasiləsiz elektrik enerjisi və istiliklə təmin olunmuş, yaşayış səviyyəsi daha da yaxşılaşmışdır.

Təbiətimizin təkrarolunmaz və orijinal komponenti olan meşələrin Yer kürəsinin təbii "istehsalat müəssisəsi" adlandırılması onun təbiətdəki rolunun nədən ibarət olduğunu göstərməkdədir. Meşələr torpaqların münbitliyinin qorunması, eroziya, şoranlaşma, səhralaşmanın qarşısının alınması, su və atmosfer mühitində balansın tənzimlənməsi, canlıların zərərli təsirlərdən qorunması kimi sanitar funksiyaları daşımaqla sanki canlıların yaşam təminatçısıdır.

Həzrəti Məhəmməd Peyğəmbərin ***"Görsəniz, qiyamət qopur, yenə əlinizdəki fidanı əkin"*** kəlamı da yaşıllıqların, meşələrin faydasını ifadə edir.

Dünyada mövcud meşə ehtiyatları müxtəlif səbəblərdən, o cümlədən iqtisadi inkişaf, müharibələr, şəhərləşmə, əhalinin artımı və qlobal ekoloji problemlərin təsiri nəticəsində son 200 ildə iki dəfə azalmışdır. Ona görə də ayrı-ayrı inkişaf etmiş ölkələrdə olduğu kimi, respublikamızda da meşələrin qorunması və artırılması həyata keçirilən ekoloji siyasətin əsas tərkib hissəsidir. Son illər ölkəmizdə bu sahədə görülən işlər beynəlxalq ekoloji təşkilatlar tərəfindən də yüksək qiymətləndirilmişdir. Hər ötən il muxtar respublika ərazisində yeni meşə massivləri, meyvə bağları salınır. Muxtar respublikamızda iqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil etdiyi üçün xüsusilə torpaqların münbitliyinin bərpa olunmasında yaşıllaşdırma tədbirlərinin əhəmiyyəti böyükdür. Yaşıllıqların salınması məqsədilə, əsasən, kənd təsərrüfatı əkinləri üçün yararsız sahələr seçilir ki, bu da ekoloji tarazlığın qorunmasına, əkinəyararlı torpaqlardan səmərəli istifadə olunmasına şərait yaradır.

Naxçıvan Muxtar Respublikasının ərazisindəki qobu və yarğanlarda, eroziyaya məruz qalmış ərazilərdə, şoranlaşmış və bataqlıqlaşmış ərazilərdə relyef xüsusiyyətləri nəzərə alınmaqla müvafiq tədbirlər görülmüşdür. Külək və su eroziyasının qarşısının alınması istiqamətində hər ilin yaz və payız fəsillərində torpaq, iqlim və hidromühitin fiziki-kimyəvi xüsusiyyətləri nəzərə alınmaqla sahələrdə tarlaqoruyucu, sahilbərkidici, eroziyaya və sürüşməyə meyilli ərazilərdə meşə massivləri və meyvə bağları salınmışdır. Naxçıvançay, Gilançay, Əlincəçay vadilərində, xüsusi mühafizə olunan təbiət ərazilərində, Darıdağ ərazisində, İşgəsu massivində, Əshabi-Kəhf ziyarətgahına gedən yolun sağ və sol hissələrində, ziyarətgah ətrafında, Didivar kəndi ərazisində mövcud təpələrdə terras üsulu ilə, Duzdağ Fizioterapiya Mərkəzi ətrafında, Naxçıvan-Sədərək, Naxçıvan-Şahbuz-Batabat və Naxçıvan-Ordubad magistral avtomobil yollarının sağ və sol hissələrində, Arpaçay sol sahil kanalının aşağı sahillərində, Dəmirçi kəndinin yuxarı hissələrində, Vəlidağ ətrafında yaşıllıq və meşə-meliorativ tədbirləri həyata keçirilmişdir. Bundan əlavə, Naxçıvan şəhəri ətrafında, muxtar respublikanın mövcud sututarlarının, çay massivlərinin və su kanallarının ətrafında, xüsusi mühafizə olunan ərazilər şəbəkəsində sürüşmə və eroziyaya meyilli ərazilərdə, qobu və yarğanlarda, şoranlaşmış və bataqlıqlaşmış sahələrdə, o cümlədən yarımsəhra və səhralaşmış ərazilərdə dövlət strukturlarının dəstəyi ilə 15 min hektardan çox sahədə yaşıllıqlar salınmışdır. Muxtar respublikanın meşə fondu torpaqlarında və digər təbiət ərazilərində ağac və kolların bərpası və artırılması, şəxsi mülkiyyətdə olan torpaqlarda yeni meyvə bağlarının salınması nəticəsində, ümumilikdə, yaşıllıqların sahəsi 12 faizə qədər artmışdır. Ötən il də bu sahədə görülən işlər davam etdirilmiş və muxtar respublika ərazisində 537 hektar sahədə yeni yaşıllıqlar salınmışdır.



Muxtar respublika ərazisində yaşıllaşdırma tədbirləri iqlim və torpaq xüsusiyyətlərinə uyğun olaraq, əsasən, yaz (mart-aprel) və payız (oktyabr-noyabr) fəsillərində aparılır. Novruzun xəbərçisi olduğu yaz fəslinin gəlişi ilə yaxın günlərdə yaşıllaşdırma tədbirlərinə başlanacaqdır. Muxtar respublikada dövlət ekoloji siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hər il olduğu kimi, bu il də muxtar respublika ərazisində aparılacaq yaşıllaşdırma tədbirlərinə xüsusi hazırlıq işləri görülür. Belə ki, nazirliyin aid şöbəsi tərəfindən muxtar respublika üzrə yeni meşə massivlərinin, meyvə bağlarının salınacağı ərazilərin sxem-planları hazırlanmış, rayonlaşdırma işləri görülmüş, əkiləcək tinglər torpaq xüsusiyyətlərinə uyğun seçilmiş, suvarma mənbələri müəyyən edilmiş, əkiləcək ərazilərdə torpaq hazırlığı işləri aparılmış, istifadə olunacaq maşın və mexanizmlər saz vəziyyətə gətirilmişdir.

Muxtar respublika ərazisində 2015-ci ildə də aparılacaq yaşıllaşdırma tədbirləri zaman müsbət nəticələrə nail olmaq üçün müəyyən edilmiş əkin qaydalarına və becərmə işlərinə düzgün əməl edilməlidir.

Əvvəlcə ərazilər təmizlənməli, şumlanmalı, 40-50 santimetr dərinliyində çalalar qazılmalıdır. Çalalar qazılan zaman torpağın üst qatı bir tərəfə, alt qatı bir tərəfə toplanmalıdır. Qazılmış çalaya bir az yumşaq torpaq töküldükdən sonra üzərinə ağacın yüngülcə təmizlənmiş kökü qoyulur və ting əkini aparılır. Yaxşı olar ki, bitkilərin kök ətrafında qida mühitinin artırılması məqsədilə əvvəlcədən hazırlanmış üzvi gübrə, qum və torpaq qarışığı tinglərin dibinə əlavə edilsin. Ting əkildikdən dərhal sonra suvarılır (torpaq rütubətliliyindən asılı olmayaraq) ki, köklərin torpaqla təması və rütubətin ötürülməsi bərpa olunsun. Normal havada həftədə bir dəfədən gec olmayaraq suvarma aparmaq lazımdır.

***Əkin qaydalarına düzgün əməl etməklə və əkdiyimiz fidanlara yüksək aqrotexniki qulluq göstərməklə ekoloji və iqtisadi uğurlara nail ola bilərik. Bununla biz doğma Naxçıvanımızın daha da gözəlləşməsi, yaşıllıqlar diyarına çevrilməsi işinə öz töhfəmizi verə bilərik.***

**Elçin KAZIMOV**
*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı*

# Naxçıvan “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya iştirakçılarını heyrətləndirib



*Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Lisey məktəblilərdə zəngin təəssürat yaradıb*

“Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində Naxçıvan Muxtar Respublikasına gələn məktəblilər martın 18-də Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə olublar.

Təhsil ocağında keçirilən görüşdə Hərbi Liseyin rəisi, polkovnik Elman Orucov çıxış edərək təhsil ocağı barədə ətraflı məlumat verib. Elman Orucov bildirdi ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2004-cü il fevralın 27-də imzaladığı Sərəncama əsasən, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında yaradılan xüsusi təyinatlı bu təhsil müəssisəsi hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və milli ordunun peşəkar kadrlara olan tələbatını ödəmək məqsədilə yaradılıb. Bu gün liseydə vətənpərvər, yüksək təhsilli, fiziki cəhətdən sağlam və intizamlı gənclər yetişdirilir.

Vurğulandı ki, hazırda liseydə respublikamızın 20-dək bölgəsindən 657 kursant təhsil alır. Onların təlim-tərbiyəsi ilə yüzdən çox müəllim, hərbi rəhbər-tərbiyəçi və zabit məşğul olur.

Kursantların təhsilində hərbi hazırlığın xüsusi yer tutduğunu diqqətə çatdıran liseyin rəisi onların nəzəri bilikləri öyrənməklə yanaşı, taktiki təlimlərdə də iştirak etdiyini bildirdi.

Çıxışlardan sonra tur-aksiya iştirakçıları Hərbi Liseyə hədiyyələr təqdim etdilər, tədris korpusları və kursant yataqxanası ilə tanış oldular.

Şagirdlər Heydər Əliyev adına Hərbi Liseydən zəngin təəssüratla ayrıldılar.

*“Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi ilə tanışlıq*



Martın 18-də tur-aksiya iştirakçıları “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində də oldular. Tanışlıq zamanı şagirdlərə Əshabi-Kəhfin möcüzəli tarixi barədə ətraflı məlumat verildi.

Qeyd olundu ki, ziyarətgahın adı ərəb dilindən tərcümədə “mağara sahibləri” mənasını verir. Müqəddəs “Qurani-Kərim”də “Əl-Kəhf” surəsinin 9-27-ci ayələrində mağaraya sığınan 7 gəncin 300 ildən artıq yatmalarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. Müqəddəs kitabda mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapıb. Adıçəkilən mağaranın Kiçik Asiya və ya Fələstin ərazisində, hətta dünyanın digər ölkələrində olduğu güman edilib. Ancaq son dövrlərdə aparılan araşdırmalar da sübut edir ki, həmin müqəddəs məkan məhz Naxçıvandadır.

Əshabi-Kəhflə bağlı rəvayətləri maraqla dinləyən şagirdlər ziyarətgahı gəzərək buranı heyranlıqla seyr etdilər.

*Ordubadın füsunkar təbiəti, tarixi abidələri ilə tanışlıq məktəblilərdə zəngin təəssürat doğurub*

Həmin gün şagirdlər füsunkar təbiəti, tarixi abidələri ilə diqqətçəkən Ordubad rayonuna gəliblər. Məktəblilər Ordubadın tarixi abidələri ilə tanış olub, rayondakı muzeyləri gəziblər.



Əvvəlcə şagirdlər Ordubad şəhərində əsaslı şəkildə yenidən qurulan 3 nömrəli tam orta məktəbə gəliblər. Şagirdlərin diqqətinə çatdırılıb ki, üçmərtəbəli məktəb binası 744 şagird yerlikdir. Təhsil ocağında müasir tələblər səviyyəsində maddi-texniki baza yaradılıb. Burada ayrı-ayrı fənn kabinələri və laboratoriyalar mövcuddur.

Ordubad şəhərindəki “Buzxana” tarix-memarlıq abidəsinə gələn şagirdlərə məlumat verildi ki, abidə xalqımızın bir neçə əsr bundan əvvəlki yaşayış səviyyəsini, mədəniyyətini özündə təcəssüm etdirən memarlıq nümunəsidir. Məişət mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan bu abidə vaxtilə əhalinin buza olan tələbatının ödənilməsi üçün istifadə edilib. Bu gün “Buzxana”da Ordubad rayonuna xas olan milli mətbəx nümunələri yüksək səviyyədə təbliğ olunur.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi “Qeysəriyyə” tarixi abidəsinə gələn məktəblilərə buradakı eksponatlar barədə muzeyin direktoru Vilayət Bağırov ətraflı məlumat verdi. Bildirildi ki, muzey XII əsr abidəsi olan “Qeysəriyyə” binasında yerləşir. Keçmişdə şahlara məxsus daş-qaş satılması məqsədilə tikilmiş örtülü Şərq bazarına “Qeysəriyyə” deyilirdi. Bu gün burada Ordubada məxsus, dəyəri qiymətli daşlardan heç də aşağı olmayan tarixi eksponatlar sərgilənir.

“Qeysəriyyə” dünyadakı nadir abidələrdən biridir. Belə tikililərə dünyanın 3 yerində – Səmərqənd, Təbriz və Ordubad şəhərlərində rast gəlinir. Bu gün həmin binalardan ən abadı Ordubaddadır. “Qeysəriyyə” binası 1990-cı ilin may ayından Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir.



Görkəmli elm xadimi Yusif Məmmədəliyevin Ordubad şəhərindəki ev-muzeyi ilə tanışlıq da şagirdlərdə xoş təəssürat yaratdı. Burada akademikin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid sənədlər, çap olunmuş əsərləri, habelə xatirə şəkillərindən ibarət 2 minə yaxın eksponat saxlanılır. Bu eksponatlardan 250-si ekspozisiyada nümayiş olunur.

Məktəblilər Məmməd Səid Ordubadinin ev-muzeyində də oldular. Məlumat verildi ki, M.S.Ordubadi qələmi ilə dövrünün ustad ədibi, ictimai xadim kimi ad qazanıb. Onun bu xidmətlərini nəzərə alan ümummilli lider Heydər Əliyev 1972-ci ildə Ordubad şəhərində Məmməd Səid Ordubadinin ev-muzeyinin yaradılması haqqında qərar qəbul edib. Son illər muzeydə yenidənqurma işləri aparılıb. Bu gün muzeydə yazıçının həyatını və yaradıcılığını əks etdirən yüzlərlə eksponat, əl yazıları var.

Şagirdlər Ordubad şəhərindəki yeraltı abidəyə də baxıblar. XIX əsrin ikinci yarısında ordubadlı Mənsur ağa tərəfindən inşa edilən yeraltı abidə çar Rusiyası dövründə poçt binası, Sovet hakimiyyəti illərində isə bir tərəfi poçt binası, digər tərəfi isə “Pionerlər evi” kimi fəaliyyət göstərib. Abidə dəhliz və iki otaqdan ibarətdir. Ötən illərdə bərpa ediləndən sonra otaqlardan birində xalçaçılıq müəssisəsi, ikinci otaqda foto-satış-sərgi salonu təşkil olunub.

Ordubadın füsunkar təbiəti, tarixi abidələri ilə tanışlıq məktəblilərdə zəngin təəssürat doğurub.

Martın 18-i axşam tur-aksiya iştirakçıları “Duzdağ” oteldə Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin konsertini maraqla izləyiblər.

“Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində ekskursiyalar martın 24-dək davam edəcək.

✍ **Rauf ƏLİYEV**

## Məktəblilər tarixi abidələrə və müasir təhsil ocaqlarına heyran qalıblar

*Şəhla Məhərrəmova: Naxçıvanda gözəl, müasir məktəblər var*



“Naxçıvan Muxtar Respublikasının hər tərəfində gördüyüm gözəllik, təmizlik çox xoşuma gəldi. Mənim diqqətimi ən çox çəkən isə Naxçıvandakı tam orta məktəblərdir. Məktəblərin çox gözəl binaları var. Sinif otaqları, laboratoriyalar, kompüter otaqları ən müasir səviyyədədir. Şagirdlərin yaxşı oxuması üçün Naxçıvanda hər cür şərait yaradılıb”.

Bu sözləri Lənkəran şəhər 4 nömrəli humanitar təmayüllü məktəbin 11-ci sinif şagirdi Şəhla Məhərrəmova qəzetimizə müsahibəsində dedi.

Şəhla Məhərrəmova Heydər Əliyev adına Hərbi Liseydə kursantlar üçün yaradılan şəraitdən də danışaraq dedi ki, Naxçıvanda belə bir təhsil ocağının olduğundan xəbərsiz idi: “Tur-aksiya çərçivəsində bura gəlməklə həm Naxçıvanın tarixi yerlərini görmək imkanımız oldu, həm də Heydər Əliyev adına Hərbi Lisey kimi çox gözəl təhsil ocağı ilə tanış olduq. Ordubad şəhərindəki 3 nömrəli tam orta məktəb də çox gözəl idi”.

*Məsud Əbilov: Naxçıvanın tarixi abidələri məni heyran etdi*



Biləsuvar şəhərindəki Mübariz İbrahimov adına liseyin 10-cu sinif şagirdi Məsud Əbilov qəzetimizə müsahibəsində Naxçıvana gələndən sonra tur-aksiya çərçivəsində gəzdikləri tarixi abidələri heyranlıqla seyr etdiyini bildirdi.

Məsud Əbilov qeyd etdi ki, xüsusən “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi onda böyük maraq oyadıb: “Mən Azərbaycan tarixi dərslərində Naxçıvanın tarixi barədə oxumuşdum. Təbii ki, bu, maraqlı idi, ancaq burada gördüklərim mənim marağımı daha da artırdı. Naxçıvandakı tarixi abidələr regionun zəngin mədəniyyətindən və qədim tarixindən xəbər verir”.

**Xəbərlər şöbəsi**

## Sərhəd bölgəsindəki hərbi hissədə Novruz bayramı qeyd edilib



*Martın 17-də Əlahiddə Ümumqoşun Ordusunun Şahbuz rayonunda yerləşən “N” hərbi hissəsində Novruz bayramı münasibətilə tədbir keçirilib. Bayram tədbirində tonqal qalanıb, nəğmələr oxunub.*





Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Mirqiyas Rüstəmov hərbi hissənin əsgərləri qarşısında çıxış edərək bildirib ki, Azərbaycan xalqı qədim zamanlardan yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlayıb, bu münasibətlə şənliklər keçirib, onu yeni ilin başlanğıcı kimi qeyd edib. Xalqımız Novruzu bolluq, bərəkət, firavanlıq rəmzi hesab edib. Min illər bundan əvvəl yaranmış Novruz bayramı bu gün daha yüksək əhval-ruhiyyə ilə qeyd olunur.

Mirqiyas Rüstəmov hərbi hissənin şəxsi heyətini Novruz bayramı münasibətilə təbrik edib, onlara xidmətlərində uğurlar arzulayıb.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri İmamqulu Əhmədov çıxış edərək bildiriblər ki, çoxəsrlik tarixə malik xalqımızın günümüzə qədər yaşatdığı, qoruyub gələcək nəsillərə ötürdüyü Novruz bayramı özündə həyatı, yaranış və dirçəlişi, milli birliyi, təbiətin füsunkar gözəlliklərini əks etdirir. Sovetlər zamanı qadağan olunmuş bu bayram xalqın yaddaşında yaşayaraq müstəqillik qazanıldıqdan sonra ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd olunmağa başlanıb. Novruz bayramı 2009-cu ildə YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib, 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i “Beynəlxalq Novruz Günü” elan olunub.

Çıxış edənlər Novruz bayramı münasibətilə əsgərləri təbrik edib, onlara Vətənimizin müdafiəsində ayıq-sayıq dayanmağı arzulayıblar.

Bayram konsertində Naxçıvan Dövlət Filarmoniyasının, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivlərinin, eləcə də Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin “Şəlalə” instrumental ansamblının solistlərinin ifaları alqışlarla qarşılanıb.

✍ **Səbuhi HƏSƏNOV**




## Novruz ətirli Naxçıvan bayram libasındadır

*Neçə illərdir ki, gəncləşən qədim Naxçıvanımız gülüstan timsalındadır. Hər birimizin gözü qarşısında gözəl, füsunkar məkana çevrilən diyarımızın təbii gözəllikləri isə ilin bu fəslində onun simasına daha zəngin çalarlar qatır.*

Ağaclar tumurcuqlayır, güllər qönçələnir, ürəklər yaz nəfəsi ilə döyünür. Paytaxt şəhərimizi gəzib dolaşdıqca köksümüz fərəhdən, sevincdən qabarır, qəlblər riqqətə gəlir. Özünü yeni bir aləmdə hiss edirsən. İnsanların təbəssümlü baxışlarından qəlboxşayan ifadələr oxuyursan: xoş gəlibsən, elimizə, obamıza, Novruz! Qədəmlərin uğurlu olsun, Novruz. İlimizin ilk günü başlanır, ruzi-bərəkətin təməli qoyulur səninlə.

Belə duyğu və düşüncələri isə hər bir naxçıvanlıda yaradan amillər çoxdur: təmin olunmuş ictimai-siyasi sabitlik, insanların yaxşı yaşamasına, maddi rifah hallarının yüksəldilməsinə hesablanmış tədbirlər, genişmiqyaslı tikinti-quruculuq işləri, ticarət obyektlərində müşahidə olunan bolluq. Bu bolluq elə-belə yaranmayıb, yollar düşünülüb, layihələr həyata keçirilib ki, insanlar yaxşı yaşasınlar. Buna da nail olunub. Artıq diyarımız öz tələbatını yerli məhsullar hesabına ödəməkdədir. Muxtar respublikamızın emal və istehsal müəssisələrinin məhsulları dükan-bazarlara insan axınını daha da gücləndirib.



Çünki hər bir naxçıvanlı öz bayram süfrəsini zəngin görmək istəyir. Buna onun mənəvi haqqı, süfrəsini zənginləşdirməyə isə imkanı var. Saymaqla qurtarmayan belə amillərin təməlində isə insana qayğı dayanır. Təbii ki, belə qayğı naxçıvanlıların qurub-yaratmaq eşqinə öz təsirini göstərir. Sakinlərimiz Novruz bayramını bu il də yüksək sevinclə qarşılayırlar. Bunu həm Naxçıvan şəhərində, həm də muxtar respublikanın rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində hər addımda görmək olar. İstirahət guşələrinin, parkların siması yaz rəngindədir. O ünvanlarda Novruz ətri duyulur. Bu məkanlarda Novruzu təntənə ilə qeyd etmək üçün yüksək şərait yaradılıb. Bir neçə gün o ünvanlardan musiqi, çal-çağır səsləri kəsilməyəcək. Ən böyük bayram şənliklərinə isə Əcəmi Seyrəngahı şahidlik edəcək. Bir ucu sərhəd bölgəsi Sədərək, bir ucu dağlar diyarı Şahbuz, bir ucu bağlar diyarı Ordubaddan gələn musiqi kollektivlərinin ifasında Novruzun şəninə nəğmələr oxunacaq. Adət-ənənələrimiz nümayiş etdiriləcək, qədim milli oyunlarımız ruhumuzu təzələyəcək. Milli-mənəvi dəyərlər sistemində özünəməxsus yer tutan Novruz özü ilə xeyir-bərəkət gətirəcək.

*Bayramsayağı bəzədilmiş Naxçıvan Novruzu qarşılamağa hazırdır.*

**Muxtar MƏMMƏDOV**




*Cəmiyyət və din*

## Novruz ənənələri İslam dininin də tövsiyə etdiyi gözəl əməllərdəndir

***"Ya Məhəmməd! Minlərlə adamın (taundan) ölüm qorxusu ilə öz yurdlarını tərk edib getdiklərini görmədinmi? Allah onlara "Ölün!" – dedi və sonra da (yenidən Novruz bayramı günü) diriltdi. Həqiqətən, Allah insanlara lütf edəndir, lakin insanların bir çoxu şükür etməzlər!" ("Əl-Bəqərə" surəsi, 243-cü ayə).***

Azərbaycanda qədim dövrlərdən bu günə qədər qeyd olunan Novruz bayramı bir çox xalqlar tərəfindən də yüksək təmtəraqla keçirilir. "Yeni gün" mənasını verən "Novruz" kəlməsi, adından da göründüyü kimi, yeni ilin, yeni fəslin gəlişini bildirir. Hələ qədimdən əkinçiliklə məşğul olan bir çox xalqlar bu günü bayram kimi qeyd etmiş, torpağa bağlı olduqları üçün torpağın oyanması hadisəsini müxtəlif rituallarla şadyanalığa çevirmişlər. Azərbaycan tarixən müxtəlif etiqadların və sivilizasiyaların yayıldığı yer olduğu üçün burada qeyd olunan Novruz bayramına da bir çox müxtəlif əlavələr olmuşdur.

Bildiyimiz kimi, İslam dini humanist bir din olaraq yayıldığı ərazidəki xalqların adət-ənənəsinə böyük hörmət göstərmişdir. Əgər həmin adət və ənənələrdə dinə zidd heç bir ünsür yoxdursa, İslam dini onu rədd etməmiş, əksinə, yayılaraq daha da inkişaf etməsinə tərəfdar olmuşdur. Novruz bayramının adətlərindən olan insanların bir-birlərini sevindirmələri, qohum-əqrəbaya, xəstələrə baş çəkilməsi, imkansız insanlara əl tutulması kimi xoş davranışlar İslamın da qəbul və təqdir etdiyi bəşəri ideyalardandır. Diqqətlə incələsək, görərik ki, Novruz bayramı özündə mənəvi-əxlaqi dəyərləri də əks etdirir. Bu bayramda küsülülərin barışması, insanların bir-birləri ilə bayramlaşmaları, evlərində bişirdikləri yemək və şirniyyatlardan bir-birlərinə pay vermələri hər cəhətdən müsbət hallardır. Bütün bunlar İslamın da tövsiyə etdiyi gözəl əməllərdəndir.

"Qurani-Kərim"də Novruz bayramına işarə olunmasa da, İslam rəvayətlərindən bəzisində bayram kimi qeyd olunan mühüm günlər tərifənmiş və ona hörmət edilməsi qeyd edilmişdir. "Bayram" sözünə "Qurani-Kərim"də yalnız bir dəfə, "Maidə" surəsinin 114-cü ayəsində rast gəlirik: Məryəm oğlu İsa dedi: *"İlahi, ey Rəbbimiz! Bizə göydən yeməklə dolu bir süfrə nazil et ki, o, bizim üçün, həm birincimiz, həm də sonuncumuz üçün bir bayram və Sənin tərəfindən bir nişanə və möcüzə olsun; və bizə ruzi ver. Sən ruzi verənlərin ən yaxşısısan".*

"İslam dini Novruz bayramını təsdiq edirmi?" sualı çox insanları düşündürür. Dinin məqsədi bəşəri dəyərləri ali məqama çatdırmaqdır. İslam dini ümumbəşəri bir dindir və bütün insanları özünə cəlb edir. İslam dini heç vaxt milli adət-ənənələrlə mübarizə aparmayıb; yalnız batil ənənələrə qarşı çıxıb və insan xislətinə əks olanları qəbul etməyib. Milli adət-ənənələrin cəmiyyət üçün xeyir və savabı varsa, İslam dini onu qəbul edir. Belə qədim adət-ənənələrdən biri də Novruz bayramıdır.

Görəsən, İslam dinində Novruz bayramını rədd və ya təsdiq edən bir əmr varmı?

– Şeyx Səduq belə bir hadis nəql edir: *"Hz. Əli üçün Novruz hədiyyəsi gətirdilər. Buyurdu: "Bu, nədir?" Dedilər: "Ey Əmir əl-möminin, bu gün Novruzdur. Bu gün bayram edilib, hədiyyələr bağışlanılar". Buyurdu: "Bizim hər günümüz Novruz edin".*

– Noman ibn Məhəmməd Təmimi "Dəaimul-İslam" kitabında rəvayət edir: *"Hz. Əli üçün (gülab və şərbət) hədiyyə gətirdilər. Buyurdu: "Bu, nədir?" Dedilər: "Bu gün Novruzdur". Buyurdu: "Əgər elə bilsəniz, hər günü Novruz edin"* (yəni Allaha xatir bir-birinizə hədiyyə verin və bir-birinizin görüşünə gedin).

Novruzun məna və əhəmiyyətinə görə İslam bu dirilik bayramını qadağan etməmiş, xalqımız bu ənənəni qorumuşdur. Bu bayram İslam dinində olduğu kimi, insan xislətinə əsaslanır, insani dəyərlər aşılayır. Bütün irqçi təmayülləri və ayrı-seçkilik siyasətini rədd edən İslam yayıldığı ərazilərdə bir sıra ənənələri aradan qaldırdı, Novruz isə toxunulmaz olaraq qaldı. Başqa xalqlardan fərqli olaraq, biz yazın gəlişini Allahın bizə verdiyi nemətlərə şükür kimi qeyd edirik. Xalqımız İslamı qəbul etdiyi ilk çağlardan Novruza qarşı mübarizə görməyib, əksinə, bu bayram daha da mənəvi bir rəng alıb. Qədimdə Novruz yeni ilin başlanğıcı idi və insanlar Novruz axşamı ilin təhvil olunması ilə bağlı dualar oxuyardılar. Allahdan gələn ilin bərəkətli olmasını istəyərdilər.

Beləliklə, din və şəriət baxımından bu milli bayramın qarşısını almaq üçün heç bir hökm olmadığından onu rədd etmək olmaz. Nəyinsə şəriətimizdə yer almaması onun qadağa olunduğuna işarə etmir. Novruz bayramı Allahın bizə bəxş etdiyi nemətləri xatırladır, o nemətlərdən insanlara ehsan etməyə, bir-birini ziyarət edib mehribançılıq yaratmağa təşviq edir. Bu əməlləri elə dinimiz də bizə tövsiyə edir. Novruz bayramı onu qeyd edənləri Allaha daha da bağlayır.

**Vüqar BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi***

## Üç səhiyyə müəssisəsində Novruz süfrəsi açılıb

***Martın 17-də – ilaxır çərşənbə günü Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanseri, Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi, Ağciyər Xəstəlikləri Dispanserində yazın gəlişini müjdələyən Novruz bayramı ərəfəsində bayram süfrəsi açılıb.***

Qədim adət-ənənələrimizə uyğun xonça, bərəkətli torpaqlarımızın şirin bəhrəsi olan dadlı meyvələr, səməni, şəkərbura, paxlava, şərbətlər, milli içkilər, müxtəlif rənglərdə boyanmış yumurtalarla bəzədilmiş plov süfrəsi başında vurğulandı ki, Novruz hər bir azərbaycanlının qəlbinin bayramıdır, hər bir insanın, ailənin bayramıdır, müstəqil Azərbaycan Respublikasının bayramıdır. Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə əmanət qoyduğu ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olub, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş edib.

Tədbirdə ifadə olunan arzular belə idi: builki Novruz bayramı körpələrimizə mavi səma, bütün Azərbaycan xalqına qələbə sevinci bəxş etsin. Qoy bütün xəstələr şəfa tapıb ölkəmizin daha da qüdrətlənməsinin fəal iştirakçılarına çevrilsinlər. İndi insan sağlamlığının qorunması insan amilinə verilən ən böyük dəyərdir. Muxtar respublikamızda yeni səhiyyə müəssisələrinin açılması, onların ən müasir avadanlıqlarla təchiz edilməsi bu dəyərin parlaq ifadəsidir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Çempion tələbə 28-ci Dünya Universiadasına vəsiqə qazanıb

"Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbələri arasında Bakı şəhərində keçirilən XII Respublika Universiadasında Naxçıvan Dövlət Universitetinin tələbələri yüksək nəticələr əldə ediblər.

İdmanın sərbəst güləş növü üzrə keçirilən yarışlarda Naxçıvan Dövlət Universitetinin tələbəsi Ramid Yaqubov 60 kq çəki dərəcəsində çempion olaraq, bu il iyul ayının 3-14-də Cənubi Koreyada keçiriləcək Tələbələrin 28-ci Dünya Universiadasında iştirak etmək hüququ qazanıb. Azər Əliyev isə 74 kq çəki dərəcəsində üçüncü yerə layiq görülüb. Qeyd edək ki, idmançı tələbələr yarışlara Naxçıvan Dövlət Universitetinin Tələbə idman klubunun sədri, dosent Məmmədli Rəhimovun rəhbərliyi ilə qatılıblar.

Şahmat üzrə keçirilən yarışlarda isə universitetin tələbəsi Toğrul Hacızadə 51 şahmatçı arasından beşinci yerə layiq görülüb. Bu yarışlarda turnir cədvəlinə liderlik edən şahmatçı ilə Toğrul Hacızadə arasında cəmi yarım xal fərq olub.

**Mina QASIMOVA**

## Şahbuzda daha bir yarışa yekun vurulub

Şahbuz Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında vətənin müdafiəsinə hazıram poliatlon çoxnövçülüyü üzrə Şahbuz rayon birinciliyinə yekun vurulub. Birinciliyin açılış mərasimində Şahbuz Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Muradov, rayon Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Sahib Hüseynov çıxış edərək komandalara uğurlar arzulayıblar.

14 tam orta məktəbin komandasının mübarizə apardığı yarışın yekun nəticələrinə əsasən, Kükü kənd tam orta məktəbinin komandası birinci yerə layiq görülüb. Digər iki pillədə isə Kolanı və Gömür kənd tam orta məktəblərinin komandaları qərarlaşıblar. Qalib komandalara və hər növdə fərqlənən şagirdlərə təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Əsgərova Aytən İlqar qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 237